http://www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 - cü ildən çıxır. №19 (1551) 15 noyabr 2012 - ci il Qiyməti 20 qəpik

# Bakıda Milli Təhlükəsizlik Nazirliyinin hərbi hospitalı istifadəyə verilmişdir

**Azərbaycan Prezidenti İlham Əliyev açılış mərasimində iştirak etmişdir**

Noyabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Milli Təhlükəsizlik Nazirliyinin hərbi hospitalının açılışında iştirak etmişdir.

Milli təhlükəsizlik naziri general-leytenant Eldar Mahmudov Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə raport verdi.

Dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin hospitalın həyətində ucaldılmış abidəsini açdı. Prezident İlham Əliyev abidənin üzərindən ağ örtüyü götürdü, önünə gül dəstəsi qoydu.

Sonra dövlətimizin başçısı hospitalın rəmzi açılışını bildirən lenti kəsdi, yaradılan şəraitlə tanış oldu.

Foyedə ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin ölkəmizdə səhiyyənin inkişafına diqqət və qayğısını əks etdirən fotoguşələr yaradılmışdır.

Milli təhlükəsizlik naziri Eldar Mahmudov Azərbaycan Prezidentinə məlumat verdi ki, yeni tikilmiş hərbi hospitalda quraşdırılan avadanlıq tibbin ən son nailiyyətlərinə əsaslanır. Müasir texniki baza ilə təchiz olunan hərbi hospitalın istifadəyə verilməsi həm də Milli Təhlükəsizlik Nazirliyi əməkdaşlarının sosial məsələlərinin həllində mühüm əhəmiyyət daşıyır. Tibb ocağında yaradılan müasir şərait bütün növ ağır cərrahi əməliyyatları aparmağa, müayinə və müalicə işlərini ən yüksək səviyyədə həyata keçirməyə imkan verir.

Prezident İlham Əliyev hərbi hospitalın konfrans salonuna da baxdı. Burada Azərbaycan səhiyyə sisteminin inkişafında müstəsna xidmətləri olan məşhur həkimlərin portretləri və onlar haqqında məlumatlar əks olunmuşdur. Bildirildi ki, 120 nəfərlik konfrans salonunda müxtəlif seminarların, elmi-praktik tədbirlərin keçirilməsi üçün hər cür şərait yaradılmışdır.

Dövlətimizin başçısına məlumat verildi ki, burada yaradılan şərait ürək cərrahiyyəsi, travmatologiya və ortopediya, ümumi cərrahlıq, urologiya, LOR və digər sahələrdə əməliyyatların səhiyyənin ən son nailiyyətləri əsasında aparılmasına imkan verəcəkdir. Reanimasiya və intensiv terapiya şöbələrindəki şərait də müalicəvi tədbirlərin tam və keyfiyyətlə



aparılmasına xidmət edəcəkdir.

Hospitalda yaradılmış şəraitlə tanışlıqdan sonra Prezident İlham Əliyev Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşları və tibb ocağının kollektivi ilə görüşdü.

# GÖRKƏMLİ ALİMİN 110 İLLİK XATİRƏ İŞIĞINDA

**◆ Bu günlərdə Azərbaycan oftalmologiyasının ən görkəmli nümayəndələrindən biri -30 -ildən artıq Tibb Universitetinin oftalmologiya kafedrasına rəhbərlik etmiş əməkdar elm xadimi ,Azərbaycan EA - nın müxbir üzvü, professor Ümnisə Süleyman qızı Musabəyovanın 110 - illik yubileyi qeyd olunmuşdur. Bu münasibətlə ATU-nun Tədris Terapevtik Klinikasında alimin yubileyinə həsr edilmiş Elmi-praktik konfrans keçirilmişdir.**

Konfransı giriş sözü ilə açan Tibb Universitetinin rektoru, millət vəkili, akademik Əhliman Əmiraslanov ölkəmizdə oftalmologiya elminin inkişafında əvəzsiz xidmətlər göstərmiş Ümnisə xanım Musabəyovanın keçdiyi ömür yoluna qısa nəzər salaraq Azərbaycan dilində oftalmologiyaya dair terminlərin yaradıcılarından biri kimi onun 1932- ci ildə ilk dəfə bu fənn üzrə mühazirələr oxumağa başladığını vurğuladı. Rektor dedi ki, Ümnisə xanımın rəhbərliyi ilə 3 doktorluq və 12 namizədlik disertasiyası müdafiə olunmuşdur. Onun Azərbaycan dilində ilk "Göz xəstəlikləri" dərsliyi bu gün də tələbələrin stolüstü kitabıdır. Ə.Əmiraslanov bu dəyərli insanların yubiley mərasimlərinin keçirilməsinə göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlığını ifadə etdi. Rektor dedi ki, belə tədbirlərin keçirilməsinin əsasını ümummilli liderimiz Heydər Əliyev qoyub. Çünki o, Ümnisə xanım kimi fədakar elm, mədəniyyət, ədəbiyyat adamlarını sevirdi və onların əməyinə yüksək qiymət verirdi.



Oftalmologiya kafedrasının müdiri, professor Paşa Qəlbinur Ümnisə Musabəyovanın həyat və fəaliyyəti, həmçinin elmi-nəzəri dünyagörüşü haqqında ətraflı çıxış etdi. Ümnisə xanımın elmi- tədqiqatlarının əsasən traxomanın diaqnostikası, kliniki və müalicəsi, göz almasının qəlpə ilə zədələnmələri, qlaukoma xəstəliyi, başqa orqanların xəstəlikləri zamanı görmə orqanında əmələ gələn dəyişikliklər, görmə orqanının fiziologiyası görmə sinirinin xəstəlikləri probleminə həsr olunduğunu diqqətə çatdırdı. Heç zaman unutmadığı müəllimi haqqında yadda qalan xatirələrini söylədi.

Natiq qeyd etdi ki, yüksək insani keyfiyyətləri ilə yad edilən alim göz xəstəliklərinin müalicəsi zamanı öz gözünün nurundan hər bir xəstəyə pay verməyə çalışardı. P.Qəlbinur çıxışında Ümnisə xanım Musabəyovanın bir neçə dil bilməsi və Azərbaycan tibb elmini bütün dünyada tanıtmasını toplantı iştirakçılarına bir daha xatırlatdı. Onun yetişdirdiyi elmi kadrların öz istedadları ilə tibb sahəsində uğurlar qazandıqlarını vurğuladı.

AMEA-nın vitse-prezidenti, akademik Arif Haşımov, epidemiologiya kafedrasının müdiri, professor İbadulla Ağayev, Zərifə Əliyeva adına göz xəstəlikləri klinikasının direktor müavini Hicran Namazova , həmin klinikanın baş elmi işçisi Həyat Əfəndiyeva HTİ-nun dosenti Kazbek Tağıbəyov xatirə çıxışlarında Ümnisə xanımın öz elinə- obasına və xalqına bağlı bir insan ömrü yaşadığını , tələbkar müəllim, gözəl dost, qayğıkeş ailə başçısı olduğunu dönə-dönə dilə gətirdilər, onun nurlu xatirəsini daim andıqlarını söylədilər.





Ümnisə xanım Musabəyovanın ailə üzvləri adından alimin yaxın qohumu Zakir İsmayılzadə çıxış edərək yubiley tədbirinin təşkilatçılarına və iştirakçılarına öz dərin təşəkkürünü bildirdi. Sonra Ümnisə Musabəyovanın mənalı ömür yolundan bəhs edən sənədli film göstərildi

Bu cür yubiley tədbirlərinin ən çoxunun bu kafedrada keçirildiyini yüksək qiymətləndirən akademik Ə.Əmiraslanov tarixi-mizin hər bir anının gələcək nəsillərə çatdırılmasının vacibliyini önə çəkərək belə insanların adının müstəqil dövlətimizin tarixi salnaməsinə əbədilik həkk olunduğunu söylədi. -"Belə alimlərimizi unutmaq keçmişimizi unutmaq deməkdir".

Elmi- praktik konfrans fasilədən sonra öz işini alimin yubileyinə həsr olunmuş elmi məruzələrlə davam etdirdi.

**MƏNSUR**

# Rektor qəbul etmişdir

**31 oktyabr-1 noyabr tarixlərində "Avropa" otelində "Azərbaycan ilə İtaliya arasında təhsil sahəsində əməkdaşlıq: mövcud vəziyyət və perspektivlər" mövzusunda konfrans keçirilmişdir.**





Oktyabrın 31-də konfrans iştirakçılarından La Sapienza Universitetinin rektoru, professor Luici Fratini və həmin universitetin professoru Angelo Filippinini ATU-nun rektoru, Milli Məclisin deputatı, akademik Əhliman Əmiraslanov qəbul etmişdir.

Qonaqları salamlayan Ə.Əmiraslanov rəhbərlik etdiyi universitetin ölkədə yeganə ali tibbi təhsil ocağı kimi böyük maddi-texniki bazaya malik olduğunu vurğuladı. Universitetin potensial imkanlarından, professor-müəllim heyətinin yüksək elmi-pedaqoji fəaliyyətindən və beynəlxalq əlaqələrindən söhbət açan rektor son illərdə universitet klinikalarının yaradılması istiqamətində görülən işlərin əhəmiyyətindən də danışdı: "Universitetimizin 90 ildən artıq bir tarixi var. Hər il 1000-ə yaxın tələbə qəbul edirik. Universitetimizdə 7000-ə yaxın tələbə təhsil alır.Onların təlim-tərbiyəsi ilə 170-dən artıq professor məşğuldur. Burada yerli tələbələrlə yanaşı dünyanın 21 ölkəsindən 1200 nəfər tələbə oxuyur. Sovetlər birliyi dövründə bizdə universitet klinikaları olmayıb. Ölkəmiz müstəqillik qazandıqdan sonra universitet klinikaları yaranmağa başladı. Hal-hazırda universitetimizin 3 klinikası fəaliyyət göstərir. 2 il öncə terapevtik yönümlü 16 kafedranı özündə birləşdirən 400 çarpayılıq Tədris-Terapevtik Klinika istismara verilib. Ən müasir avadanlıqlarla təchiz olunan bu klinikanın açılışında ölkə başçısı cənab İlham Əliyev iştirak edib.

2013-cü ilin sentyabrda 500 çarpayılıq Cərrahi Klinikanın istifadəyə verilməsi gözlənilir. Orada cərrahi yönümlü 21 kafedranın yerləşdirilməsi nəzərdə tutulub. Universitet klinikaları həm tədrisin keyfiyyətinin yüksəldilməsinə xidmət göstərir, həm də şəhərin müxtəlif nöqtələrində yerləşən kafedraları bir yerə yığmaq baxımından əlverişlidir.

Onu da deyim ki, beynəlxalq əlaqələrimiz ildən-ilə genişlənir. İtaliya ilə də çox sıx əlaqələrimiz mövcuddur. Biz bir çox qrant layihələrində tərəfdaş olduğumuz İtaliyanın ən nüfuzlu universiteti kimi tanınan La Sapienza Universiteti ilə əlaqələr qurmaqda da maraqlıyıq. Təhsil nazirmiz İtaliyaya səfər edəndə nümayəndə heyətinin tərkibində mən də vardım. Təəssüf ki, obyektiv səbəblərdən gedə bilmədim. Əminəm ki, bu boşluğu sizin universitetimizə gəlişiniz dolduracaq".

Səmimi qəbula görə ATU-nun rektoruna təşəkkürünü çatdıran professor Luici Frati əvvəlcə özlərini təqdim etdi: "Ümumi Roma Univrsitetinin rektoruyam. Molekulyar onkoloji sektor üzrə ixtisaslaşmış bir həkiməm. İtaliyada təhsil almışam, sonra ABŞ-da təhsilimi davam etdirmişəm. Uzun illər Roma Universitetinin tibb fakültəsinin rəhbəri olmuşam. Hal-hazırda həmin universitetin rəhbəriyəm. Professor Filippini cərrahdır, Azərbaycanla müəyyən əlaqələrə malikdir. Keçən il sizin prorektorla əlaqə saxlayıb, hansı sahələrə daha çox maraq olduğunu öyrənib. Mən İtaliya Təhsil Nazirliyini təmsil edirəm. Bizim əsas maraq dairəmiz sizinlə əlaqələri dərinləşdirmək, birlikdə tədqiqat sahələrini araşdırmaq və inkişaf etdirməkdir.

İtaliyalı qonaq rəhbəri olduğu universitet haqqında da məlumat verərək qeyd etdi ki, Avropanın ən böyük ali təhsil müəssisələrindən biri olan La Sapienza Universitetində 140 min tələbə təhsil alır. Universitetdə 11 fakültə, 2 xəstəxana, muzey və zəngin kitabxana fəaliyyət göstərir, bir sıra ixtisaslar üzrə tədris ingilis dilində aparılır, elmi tədqiqatlara geniş yer verilir. Azərbaycan universitetləri ilə, o cümlədən Azərbaycan Tibb Universiteti ilə əməkdaşlıqda maraqlı olduqlarını deyən rektor bu görüşün ikitərəfli əlaqələrin uğurla davam etdirilməsi baxımından əhəmiyyətli olacağını bildirdi.

İtaliyada onkoloji sistemin bir qədər fərqli olduğunu söyləyən L.Frati "Mən onkoloqlar üçün çox təhlükəli bir adamam"-dedi. Hər iki rektor arasında kiçik bir peşə dialoqu yarandı. L.Frati: "Siz əməliyyatın nəticəsini radikal qarşılayanda mən artıq buna qarşı çıxıram". Ə.Əmiraslanov: "Biz cərrahlar morfoloqlardan çox asılıyıq. Sizin köməyiniz bizə çox lazımdır. Sizsiz biz heç nə edə bilmərik". L.Frati: "İtaliyada belə bir deyim var: həkim hər şeyi bilir, ancaq heç nə etmir. Cərrah isə əksinə olaraq heç nə bilmir, ancaq hər şey edir". Ə.Əmiraslanov: "Bizdə də belə bir deyim var ki, ən cəsarətli cərrah morfoloqlardır".

Qarşılıqlı anlaşma şəraitində keçən görüşdə ikitərəfli əlaqələrin daha da genişləndirilməsi, yay təcrübəsi keçən tələbələrin sayının artırılmasına dair razılaşma əldə olundu, müvafiq müqavilələrin imzalanması qərara alındı.

Qəbulda ATU-nun tədris işləri üzrə prorektoru, professor Sabir Əliyev, xarici əlaqələr üzrə prorektor, professor Məmməd Nəsirov və xarici əlaqələr şöbəsinin müdiri, dosent Rəhimə Qabulova iştirak etmişlər.

İtaliyalı qonaqlar Tədris-Terapevtik Klinikaya və insan anatomiyası kafedrasına da baş çəkmiş, burada yaradılan şəraitlə yaxından tanış olmuşlar.

**Arif MƏMMƏDLİ**

---

**Ayın başlanğıcında iş rejimi çox sıx olan ATU-nun rektoru, millət vəkili, akademik Əhliman Əmiraslanov İranın ölkəmizdəki səfiri Möhsün Pak Ayini də qəbul etmişdir.**

Sabiq səfir Bəhrami ilə tez-tez görüşərək tələbələrin problemlərini birlikdə müzakirə etdiklərini söyləyən rektor yeni səfirlə də işgüzar əlaqələr quracağına ümid bəslədiyini söylədi. Qeyd etdi ki, İran bizə qardaş, dost ölkədir. Orada mənim təhsil, tibb sahəsində çalışan çoxlu dostlarım var. Böyük məmnuniyyətlə onları bura





dəvət edirik, biz ora səfər edirik. Belə də olmalıdır. Bizim İranda olan tibb universitetləri ilə əlaqələrimiz var, amma istədiyimiz səviyyədə deyil. İnşallah, cənab səfirin köməyi ilə bu əlaqələri genişləndirəcəyik. Bizdə İran İslam Respublikasından təxminən 400-ə yaxın tələbə, hazırlıq və ixtisas keçən insanlar var. Həmişə İrandan gələn tələbələrə üstünlük vermişik. Çünki onların dil problemi yoxdur.

Ə.Əmiraslanov İrandan gələn tələbələr arasında çox zəif tələbələrin olmasından təəssüfləndiyini də dilə gətirdi: "Bəziləri bura dərs oxumaq üçün yox, ticarət üçün gəlirlər. Mən həmişə deyirəm ki, ticarətə də gəlsinlər, ancaq ticarətlə təhsil tutmaz. Ona görə də sıx-sıx problemər yaranır. Biz çalışırıq ki, onlara əlavə dərslər təyin edək. Elə olur ki, bu tələbələri univrsitetdən kənara atırıq, bunu ürək ağrısı ilə edirik. Amma gərək təhsildə güzəşt olmasın".

Tibb üzrə diplomların İranda tanınmamasının mənfi təsirinə də toxunan rektor bəzən universitetimiz haqqında yanlış təsəvvürün formalaşdırılmasına diqqət yönəltdi: "Çoxlu dərs buraxdıqlarına, qeyri-kafi qiymət aldıqlarına görə universitetdən xaric etdiyimiz tələbələr orada televiziyaya çıxıb bizim əleyhimizə düzgün olmayan məlumatlar yayırlar".

Dünyanın 28 ölkəsində çalışan məzunlarımızın uğurlarından söhbət açan rektor İrandan bura gələn tələbələrin bilik səviyyəsinin aşağı olmasının səbəbini belə əsaslandırdı: "Çünkü öz ölkəsində imtahan verib qəbul olan tələbə bura gəlmir. Sizin universitetlər südün üzünü yığıb özlərinə götürürlər, onun altında qalanları isə bizə göndərirlər ki, yaxşı mütəxəssis hazırlayın. İmkan daxilində buna cəhd göstərsək də, ortaya çətinliklər çıxır".

Səmimi qəbula və çox faydalı söhbətə görə rektora təşəkkürünü bildirən səfir münasibətləri inkişaf etdirməyin vacibliyini önə çəkdi. Universitetlər arasında olan əməkdaşlığı ən yaxşı əməkdaşlıq adlandıraraq dedi ki, biz heç bir ölkəni Azərbaycandan üstün tuta bilmərik. Mən gördüm ki, əməkdaşlıq haqqında kifayət qədər söz deyilib, amma praktiki əlaqələr zəifdir. Çalışacam ki, əlaqələr əməli olsun, tələbə, müəllim mübadiləsi aparılsın. Urmiya, Təbriz, Ərdəbil, İsfahan, Tehran universitetləri ilə əlaqələriniz genişlənsin.

Sizə təşəkkür edirik ki, iranlı tələbələrdən təhsil keyfiyyəti tələb edirsiniz. Biz zəif oxuyan, dərsə gəlməyən tələbəyə güzəşt xahişi etməyəcəyik. Tələbələr sizdən çox razıdırlar. Onlara hörmətlə yanaşırsınız.

Görüş zamanı tələbələrin yataqxana təminatı, qeydiyyat kartının alınması, tələbə, müəllim mübadiləsinin aparılması və səfirlik əməkdaşlarının tələbələrlə görüşünün təşkili məsələlərinə də aydınlıq gətirildi. Təhsil haqqının hissə-hissə ödənilməsi barədə razılığa gəlindi.

**A.KAMRANOĞLU**

---

**Bakıda keçirilən sağlamlıq və termal turizm üzrə Azərbaycan-Türkiyə birinci Beynəlxalq konqresinə qatılan türkiyəli qonaqlar noyabrın 8-də universitetimizə gəlmiş, Tədris-Terapevtik Klinikaya baxış keçirmişlər.**





Klinikanın direktoru, professor Surxay Musayev qonaqlara ətraflı məlumat verərək bildirmişdir ki, müasir maddi-texniki bazaya malik kinika tamamilə kompyuterləşdirilmişdir. 204 kompyuteri, HİS,LİS və PAKS sistemlərini özündə birləşdirən kompyuter şəbəkəsi bütün tibbi sənədləşmə prosesini sürətlə icra etmək, arxivləşdirmək, statistik işləmək, görüntüləmə və laborator müayinələrin nəticələrini müalicə həkimlərinə, eləcə də dünyanın hər hansı ölkəsindəki mütəxəssisə ötürmək imkanına malikdir.

Burada xarici ölkələrin qabaqcıl klinikaları və dünyanın görkəmli tibb mütəxəssisləri ilə video bağlantı qurub müzakirələr aparmaq, məsləhətlər almaq mümkündür. Bütün tədris otaqları, iş kabinetləri, palatalar sürətli internet xəttinə qoşulmuşdur. Tədris prosesinin əyaniliyini artırmaq məqsədilə 18 mürəkkəb xəstəliyi və onların çoxsaylı fəsadlaşmalarını modelləşdirmək imkanına malik, Amerikadan gətirilmiş robot simulyatorlar quraşdırılaraq Tibbi treninq mərkəzi yaradılmışdır.

Eşitdiklərini həm də əyani olaraq müşahidə edən qonaqlar burada yaradılan şəraiti yüksək dəyərləndirmişlər.

Afyon Kocatepe Universitetinin rektoru, professor Mustafa Solakın rəhbərlik etdiyi nümayəndə heyətini ATU-nun rektoru, Milli Məclisin deputatı, akademik Əhliman Əmiraslanov klinikanın müşavirə zalında qəbul edərək beynəlxalq əməkdaşlıq sahəsində Türkiyə Cümhuriyyətinin universitetlərinə xüsusi önəm verdiklərini, ölkələrimiz arasında elm, təhsil əlaqələrinin əhəmiyyətini vurğulamışdır.

Qardaş ölkəyə gəldiklərini, təəssüratlarının zəngin olduğunu söyləyən türkiyəli rektor Azərbaycan Tibb Universiteti ilə hərtərəfli əlaqələr qurmağa böyük maraq göstərdiklərini, bu sahədə atılan ilk addımların gələcək perspektivlərini diqqətə çatdırmışdır.

Görüşün sonunda hər iki universitet arasında niyyət protokolu imzalanmış, türkiyəli rektora universitetimizin "Yubiley" qızıl medalı təqdim olunmuşdur.

Qəbulda Türkiyə Cümhuriyyəti Başbakanlığının müşaviri M.Hamdi Şengel, Yönətim Kurulunun başkan yardımcısı Levent Oruç, Kirikkale Universitetinin tibbi bioloji AD. Başkanı, professor Solmaz Erdem, ATU-nun tədris işləri üzrə prorektoru, professor Sabir Əliyev, xarici əlaqələr üzrə prorektor, professor Məmməd Nəsirov və Tədris-Terapevtik Klinikanın direktoru, professor Surxay Musayev iştirak etmişlər.

**M.CAVADOV**

---

**Noyabrın 5-də Azərbaycanda səfərdə olan Koreya Eva Universitetinin nümayəndə heyətini Azərbaycan Tibb Universitetinin rektoru, millət vəkili, akademik Əhliman Əmiraslanov qəbul etmişdir.**

O, qonaqları salamlayaraq bildirdi ki, universitetimizin sizin ölkəyə çox böyük marağı var. Biz keçmiş SSRİ-nin tərkibindən çıxmış bir respublikayıq. Səhiyyədə yeni reformalar aparırıq. Dünyanın inkişaf eləmiş, Avropanın, Amerikanın universitetləri ilə əlaqələr qururuq, istərdik ki, bu sıraya sizin universitetlər də daxil olsun, səhiyyə, tibb sahəsindəki təcrübənizi öyrənə bilək.

Nümayəndə heyətinin rəhbəri, Koreya Tibb Təhsili Cəmiyyətinin katibi, ürək cərrahı, professor Jae Jın.Han dəvətə görə təşəkkürlərini çatdıraraq burada olmaqdan şərəf duyduqlarını söylədi: "Son 4 gündə biz sizin müəllimlərlə, insanlarla əlaqədə olduq, bəzi söhbətlər apardıq. Oxşar və fərqli cəhətləri gördük. Tibb servis xidməti sahəsinə baxdıq. Məqsədimiz gələcəkdə hansı istiqamətdə işləyə biləcəyimizi öyrənməkdir. Düşünürük ki, bura gəlişimiz ilk addımdır. Gələcəkdə bu işi davam etdirmək fikrindəyik".



Fotolar Cənnətalı Çingizindir

Nümayəndə heyətinin tərkibinə daxil olan koreyalı professorlar Koo Young.Jung, Sun Hee. Chun, Hong Soo.Lee və Kyoung Eun. Lee səfər təəssüratlarını bölüşdülər.

Sonda tələbə və mütəxəssis mübadiləsi özündə əks etdirən ikitərəfli əməkdaşlıq müqavilələrinin imzalanması qərara alındı.

Qəbulda ATU-nun tədris hissə müdiri, dosent Nəsimi Qasımov və xarici əlaqələr şöbəsinin müdiri, dosent Rəhimə Qabulova iştirak etmişlər.

**M.ABBASOĞLU**

# HİPPOKRAT ANDINA SADİQ HƏKİM, ALİM

**Noyabrın 6-da Azərbaycan Tibb Universitetinin ailə təbabəti kafedrasının müdiri Mustafa Salih oğlu Salihovun anadan olmasının 70, elmi-pedaqoji fəaliyyətinin isə 45 ili tamam oldu.**

M.Salihov Bakı şəhərində görkəmli həkim və müəllim ailəsində anadan olmuşdur. 1966-cı ildə Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsini bitirdikdən sonra 1966-68-ci illərdə səhiyyə ocaqlarında praktiki həkim kimi fəaliyyət göstərmişdir. 1971-ci ildə o, aspiranturanı başa vurur və ATU-nun hospital terapiya kafedrasının assistenti, dosenti vəzifələrində çalışır.

1987-1994-cü illərdə M.Salihov Azərbaycan Səhiyyə Nazirliyinin baş terapevti vəzifəsində işləmiş və qeyri-adi təşkilatçılıq qabiliyyəti ilə respublikanın terapevtik xidmətinin inkişafını zənginləşdirmişdir. Əlamətdar haldır ki, bu vəzifədə XX əsrin 70-ci illərində onun atası ATU-nun I hospital terapiyası kafedrasına rəhbərlik edən professor Salih Mustafa oğlu Salihov olmuşdur. Öz respublikasının etiqatlı patriotu olan Müstafa müəllim 1990-cı ildə keçmiş Sovet İttifaqının aparıcı alimlərinin iştirakı ilə Azərbaycan terapevtlərinin I qurultayının keçirilməsinin təşəbbüskarı olmuşdur.

1990-cı ildə ATU-da poliklinika terapiyası kafedrasının yaranması M.Salihovun xidmətlərinin nəticəsidir və öz tükənməz enerjisi və israrı ilə təsdiq etmişdir ki, ilkin tibbi sanitar yardımı bizim səhiyyənin ilk və əsas hissəsidir.

2002-ci ildə ATU-nun Böyük Elmi Şurasının qərarı ilə poliklinika terapiyası kafedrasının bazasında Azərbaycanda ilk dəfə olaraq ailə təbabəti kafedrası təşkil edilmişdir. 1990-cı ildən indiyədək bu kafedraya müvəffəqiyyətlə M.Salihov rəhbərlik edir.

O, Azərbaycanın görkəmli terapiya korifeyləri olan C.Abdullayev, M.Əfəndiyev, S.Salihov, S.Qusman, A. Sadıxov və başqaları ilə həmişə təmasda olmuş və onlar onun professional inkişafında böyük bir rol oynamışdırlar.

Mustafa müəllim ÜST-nin tədbirlərində, Rusiyada, Almaniyada, Fransada, Belorusiyada, Ukraynada, Türkiyədə və başqa ölkələrdə keçirilən qurultaylarda, simpoziumlarda və ATU-nun TEC-n işində aktiv iştiak edir və bir çox Fəxri diplomlarla təltif olunub.

1988-1993-cü illərdə M.Salihov terapevtlərin Ümumittifaq Elmi Cəmiyyətinin İdarə Heyətinin üzvü, Azərbaycan Tibb Jurnalının redaksiya şurasının və respublika çağırış komissiyasının üzvü olmuşdur.

2001-ci ildə isə «Azərbaycanın 100 görkəmli həkimi» Beynəlxalq layihəsinin qalibi elan olundu. 2002-ci ildə Mustafa müəllim Beynəlxalq Ekoenergetika Akademiyasının «ailə təbabəti» ixtisası üzrə «professoru» seçilib. 2003-cü ildən isə «Təfəkkür» elmi-təhsil mərkəzinin professorudur. 2008-ci ildə Kanadada ilkin səhiyyə xidməti ilə bağlı elan olunan tenderə M.Salihovun namizədlyi salınmışdır və Azərbaycan həmin tenderin qalibi oldu.



2010-cu ildə M.Salihov «Xalqın nüfuzlu ziyalısı» diplomu ilə təltif olundu. Bu, insanların ona olan dərin məhəbbətinin rəmzi olaraq onun insanlığının və humanistliyinin səciyyəsidir. Respublika Prezidentinin Fərmanı ilə M.Salihova «Əməkdar həkim» fəxri adı verilmişdir.

2012-ci ildə Mustafa müəllim tibbi biliklərinin nəşriyyatda, radio, televiziya və internetdə tətbiqində aktiv iştirakına görə Azərbaycan Jurnalistlər Birliyinin «Qızıl qələm» mükafatına layiq görülmüşdür. M.Salihov Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin terapiya üzrə sertifikasiya komissiyasının və «Ailə həkimi» jurnalının redaksiya heyətinin üzvüdür. Bununla bərabər Mustafa müəllim Azərbaycan Terapevtlər Cəmyyətinin sədr müavinidir, Azərbaycan Respublikası Təhsil Nazirliyinin elmi ekspertiza komitəsinin və «Zemskiy vraç» Rusiya jurnalının redaksiya şurasının üzvüdür.

Onun elmi tədqiqatları - ilkin tibbi yardıma, Azərbaycanda ailə təbabətinin inkişafı problemlərinə, tez-tez rast gəlinən xəstəliklərin profilaktikası və diaqnostikasına həsr olunmuşdur. Alim 200-dən çox ölkəmizdə və xaricdə çap olunmuş elmi-tədqiqat məqalələrin, tezislərin, kitabların, dərs vəsaitlərinin, monoqrafiyaların müəllifidir.

2011-ci ildə M.Salihovun «Ailə təbabəti» adlı dərslik-monoqrafiyası işıq üzü görmüşdür. O, EA-nın H.Əliyev adına Ekoloji-innovasiya mərkəzinin elmi-texniki şuranın, eyni zamanda Coğrafiya Cəmiyyətinin idarə heyətinin üzvü, «Tibbi-coğrafiya» bölməsinin sədridir.

Mustafa müəllim Respublikamızın tibbi ekoloji atlasının müəlliflərindən və Xəzər problemləri üzrə EA-da keçirilən konfransın təşkilatçılarından biri olmuşdur.

Mustafa Salih oğlu Salihov özündə vətənpərvərlik, xeyirxahlıq, xalqına xidmətçilik planetar xasiyyətlə insanların keşiyində durmağa həmişə hazırdır. Ona görə ki, bu şəxs çox zəngin insan təbiətinə malikdir, bundan başqa onun insanlara münasibəti ürəklərdə silinməzdir. Biz Mustafa müəllimi ürəkdən təbrik edib, ona uzun ömür və cansağlığı arzu edirik.

**Ailə təbabəti kafedrasının əməkdaşları**

# CƏRRAH, MÜƏLLİM VƏ ALİM ÖMRÜ

**Azər Bilas oğlu Şadlinski 1937-ci il noyabrın 28-də Qərbi Azərbaycanın Vedi rayonunun Avşar kəndində ziyalı ailəsində anadan olmuşdur. 1948-ci ildə azərbaycanlılar kütləvi surətdə öz doğma dədə-baba torpaqlarından deportasiya olunur və Şadlinskilərin ailəsi Şəmkir rayonunun Çinarlı (keçmiş Leninkənd) kəndində məskən salır. O, orta məktəbi bitirərək 1958-ci ildə Azərbaycan Tibb İnstitutunun (indiki ATU) müalicə-profilaktika fakültəsinə daxil olur. Həmin fakültəni 1964-cü ildə başa vurur və 3 il Şəmkir rayonunun Dəllər-Cırdaxan kənd xəstəxanasının baş həkimi vəzifəsində işləyir.**

Cərrahlığa olan marağı onu 1967-ci ildə ATU-nun fakültə cərrahlığı kafedrasının aspirantı kimi elmi araşdırmalar aparmağa gətirib çıxarır. Akademik M.Topçubaşovun kafedrasında professor Ə.Əliyevin rəhbərliyi altında 1970-ci ildə müvəffəqiyyətlə namizədlik dissertasiyası müdafiə edir və həmin kafedrada assistent vəzifəsində çalışır.

Azər müəllim 1976-cı ildən ümumi cərrahlıq kafedrasında assistent, sonra isə kafedranın dosenti kimi öz fəaliyyətini davam etdirir.

Ömrünün 42 ilini cərrahlığa, elmi- pedaqoji işə həsr edən Azər müəllim 80-dən cox elmi əsərin, o cümlədən "Cərrahi tikişlər" (Bakı, 1980), "Cərrahi xəstəliklərin müayinə metodları" (Bakı, 1998), "Desmurgiya" (Bakı, 2003) adlı dərs vəsaitlərinin, "Qarının qapalı travmalarının diaqnostikası və müalicəsi" (Bakı, 2000) adlı monoqrafiyanın, "Rusca- Azərbaycanca tibbi terminlər lüğətinin (Bakı, 2001), 5 tədris-metodik və 2 metodik vəsaitin, 4 səmərələşdirici təklifin müəllifidir.

Uzun illər kafedranın tədris hissə müdiri vəzifəsində çalışan A.Şadlinski tədrisin keyfiyyətinin yüksəldilməsi üçün var qüvvəsini, bilik və təcrübəsini əsirgəmir. Qayğıkeşlik



və tələbkarlıq, ziyalılıq və humanistlik, həssaslıq və xeyirxahlıq, səmimilik və sadəlik, peşəkarlıq və pedaqoji ustalıq, mübarizlik və vətənpərvərlik kimi yüksək insani keyfiyyətləri Azər müəllimi kollektivin və tələbələrin sevimlisinə çevirmişdir.

Xalqımızın qəhrəman oğullarından olan Abbasqulu bəy Şadlinskinin yadigarlarından biri olan Azər müəllimin övladlarından üçü atalarının yolunu layiqincə davam etdirərək tibb sahəsində çalışırlar.Onlardan ikisi tibb üzrə fəlsəfə doktorudur.

Azər müəllim ömrünün bu çağında da gənc mütəxəssislərə bir nümunə kimi elmi-pedaqoji və ictimai işlərdə həmişə ön sıralardadır. Cərrahlıq sahəsində öz sanballı elmi işləri ilə seçilən A.Şadlinski tələbələrin və müəllim heyətinin hörmətini qazanmışdır.

Gözəl insan, qayğıkeş müəllim, tanınmış alim və cərrah olan Azər müəllimi bu əlamətdar günündə həmkarları, çoxsaylı tələbələri və ölümün pəncəsindən qurtardığı yüzlərlə insan ürəkdən təbrik edir, ona möhkəm cansağlığı, gələcək elmi-pedaqoji və ictimai fəaliyyətində, həmçinin şəxsi həyatında sevincli günlər arzulayırlar.

**Ümumi cərrahiyyə və anesteziologiya kafedrasının əməkdaşları**

# Tansel Turan: Bakıya Azərbaycan ilə Türkiyə arasında səhiyyə sahəsində əməkdaşlığın daha da genişlənməsinə şəxsi töhfəmi vermək üçün gəlmişəm

**Bakıya Azərbaycan ilə Türkiyə arasında səhiyyə sahəsində əməkdaşlığın daha da genişlənməsinə şəxsi töhfəmi vermək üçün gəlmişəm. Məqsədimiz əvvəllər olduğu kimi, Azərbaycandan xəstələri Türkiyəyə aparmaq, müalicə edib geriyə göndərmək deyil, qardaş ölkədəki tibbi imkanları təkmilləşdirmək üçün birlikdə nələr edə biləcəyimizi müəyyənləşdirməkdir.**

Bu sözləri Bakıda keçirilən sağlamlıq və termal turizm üzrə Azərbaycan-Türkiyə birinci Beynəlxalq konqresinin iştirakçısı, Emsey hospitalı baş həkiminin köməkçisi, doktor Tansel Turan AzərTAc-a müsahibəsində söyləmişdir.

Azərbaycanı özünün ata vətəni adlandıran T.Turan, ötən əsrin 90-cı illərindən etibarən ölkəmizə tez-tez səfər etdiyini bildirmişdir. Budəfəki gəlişində hələ Heydər Əliyev Beynəlxalq Aeroportunda olarkən heyrətini gizlədə bilmədiyini, son iki ildə Azərbaycanın həqiqətən inanılmaz inkişafının şahidi olduğunu vurğulamışdır.

Qonaq ölkəmizin demək olar ki, hər yerini gəzdiyini və turistik baxımından çox gözəl bölgələrimizin olduğunu qeyd etmişdir.

T.Turan bildirmişdir ki, Azərbaycanın istər ölkədə, istərsə də xaricdə təhsil almış çox yaxşı həkimləri vardır və onlar istənilən ölkədə çox yaxşı fəaliyyət göstərməyə layiq mütəxəssislərdir. Azərbaycan, eyni zamanda, dünyanın hər yerindən xəstələri buraya gətirib müalicə etmək üçün hər cür potensiala malikdir.

İndi Azərbaycanın qarşısında duran əsas məsələnin əlində olan imkanları birləşdirib yaxşı nəticə göstərmək olduğunu vurğulayan doktor, bu işdə öz təcrübələri ilə hər zaman yardımçı olmağa çalışacaqlarını nəzərə çatdırmışdır.

Türkiyəli mütəxəssis bu konqresdə ortaq bir qurum təsis etmək niyyətində olduqlarını və onun vasitəsilə qarşılıqlı tədbirlər keçirəcəklərini, lazım gələrsə həkim, tələbə mübadiləsi aparacaqlarını, iki ölkə arasındakı işbirliyini daha da təkmilləşdirəcəklərini vurğulamışdır. Qeyd etmişdir ki, qarşılıqlı məlumat və təcrübə mübadiləsi olacaq və bunun nəticəsində hər iki tərəf nailiyyətlər əldə edəcəkdir.

# Gecə işi prostat xərçənginə gətirib çıxara bilər

**Kvebek Universitetinin tədqiqat komandasının apardığı yeni axtarışın nəticələrinə görə, gecələr işləyən kişilərdə prostat xərçənginin inkişafı ehtimalı dəmək olar ki, 3 dəfə yüksəkdir.**

Buna səbəb melatonin hasilatının pozulmasıdır. Kanada tədqiqatçılarının dediklərinə görə, gündüz çalışan işçilərə nisbətən gecə növbələrində işləyən kişilərdə prostat vəzisinin xərçəngi xəstəliyinə tutulma hallarına üç dəfə çox rast gəlmək olar.

Mütəxəssislər bu və ya digər növ onkoloji xəstəlik diaqnozu qoyulmuş 3000 nəfərdən çox kişinin göstəricilərini təhlil etmişlər. Bu zaman eksperiment iştirakçılarının iş qrafiki xüsusilə nəzərə alınmışdır. Bu məlumatlar xərçəng xəstəliyi olmayan qrupun göstəriciləri ilə müqayisə edildikdən sonra məlum olmuşdur ki, prostat xərçənginin 3 dəfə və bağırsaq xərçənginin 2 dəfə artması gecə işi ilə əlaqədardır. Bundan başqa, gecə işləyənlərdə ağ ciyər xərçənginə tutulanların sayı 76 faiz, sidik kisəsi xərçənginə tutulanların sayı isə 70 faiz çoxdur.

Dəyişən növbəli qrafiklə işləyən insanların əmək stajı nəticələrə təsir göstərməmişdir. Gecə rejimində 10 ildən çox işləmiş insanlar təhlükəyə daha çox məruz qalırlar. Alimlərin fikrincə, mənfi effektin səbəbi melatonin hasilatının məhdudlaşmasıdır. Melatonin kəllə beyninin əzgiləbənzər vəzisində əmələ gələn və insanın yuxuya getməsinə kömək edən hormondur. Bu hormon gecələr hasil olunur və bioloji ritmlər süni şəkildə pozulduqda melatoninin səviyyəsi aşağı düşür ki, bu da sağlamlığa mənfi təsir göstərir.

# ATU-da Yeni Azərbaycan Partiyasının yaradılmasının 20 illik yubileyi qeyd edilmişdir

**Azərbaycan Tibb Universitetində Yeni Azərbaycan Partiyasının (YAP) yaradılmasının 20 illik yubileyi qeyd edilmişdir.**

Tədbirdə YAP Nəsimi rayon təşkilatının sədri, Milli Məclisin deputatı Məlahət İbrahimqızı çıxış edərək partiyanın iyirmi il ərzində keçdiyi şərəfli yoldan, ölkənin ictimai-siyasi həyatındakı rolundan söhbət açılmışdır. Bildirmişdir ki, Yeni Azərbaycan Partiyası ümummilli lider Heydər Əliyevin Azərbaycanın inkişafı istiqamətində müəyyən etdiyi prinsipləri özündə birləşdirmişdir.

Mərasimdə ATU-nun rektoru, Milli Məclisin deputatı, akademik Əhliman Əmiraslanov qeyd etmişdir ki, YAP ölkənin dinamik inkişafında mühüm rol oynamışdır. Partiyanın bu ali təhsil müəssisəsindəki ərazi ilk təşkilatının 2 mindən çox üzvü vardır.

Digər çıxış edənlər də partiyanın uğurlarından söz açmış, təşkilatın müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsi istiqamətindəki fəaliyyətini yüksək qiymətləndirmişlər.

# ALİMİN YENİ KİTABI




**◆ Universitetin I cərrahi xəstəliklər kafedrasının professoru S.Əliyevin yeni kitabı çapdan çıxmışdır. «Kolorektal xərçəng və bağırsaq keçməməzliyi (diaqnostika, əməliyyatönü hazırlıq, cərrahi taktika, reabilitasiya)» adlı monoqrafiya müəllifin çoxillik praktik və elmi təcrübəsinin məhsuludur.**

9 fəsildən ibarət olan kitabda yoğun bağırsaq xərçənginin müasir epidemioloji, demoqrafik, tibbi və sosial-iqtisadi aspektləri geniş şərh edilmişdir. Saday müəllimin 3-cü monoqrafiyası olan bu kitabda kolorektal xərçəngin cərrahi praktikada ən çox rast gəlinən obturasion bağırsaq keçməməzliyi və yoğun bağırsağın perforasiyası kimi ciddi ağırlaşmalarının müasir təsnifatı, diaqnostikası, yoğun bağırsağın əməliyyata hazırlanma üsulları, cərrahi taktikanın əsas prinsipləri, yoğun bağırsağın əməliyyatdaxili dekompressiyasının və kolostomiyanın operativ və texniki aspektləri təsvir edilmişdir. Problemin aktual aspektləri içərisində onkokoloproktologiyada irinli-septik ağırlaşmaların kompleks profilaktikasına, kolostomalı xəstələrin cərrahi reabilitasiyasına, bərpaedici-rekonstruktiv əməliyyatların optimal müddətinin və variantının seçilməsinə xüsusi diqqət yetirilmişdir. Monoqrafiya müasir diaqnostika və müalicə alqoritmini əks etdirən zəngin əyani materiallarla işıqlandırılmışdır. Kitab səlis dil, aydın və məntiqi ifadə üslubu, eləcə də orijinal poliqrafiya tərtibatı ilə seçilir. Böyük əminliklə qeyd etmək lazımdır ki, abdominal onkocərrahiyyənin aktual probleminə həsr edilmiş bu monoqrafiya praktik cərrahlar və onkoloqlar üçün faydalı elmi-praktik vəsait kimi qiymətləndirilə bilər.

Hər yeni kitab, orijinal əsər müəllifi aktual problemin konkret aspektinin həllinə xeyli yaxınlaşdırır, lakin onun əlçatmaz zirvəsini tam fəth etməyə hələ əsas vermir. Bununla əlaqədar yapon filosofu Lao-Tszının sözləri maraqlıdır: «Hüdudu bilmək təhlükədən azad olmağa imkan verir». Ümid etmək olar ki, professor S.Əliyevin yeni tədqiqatları öz həmkarlarını həmin zirvəyə yaxınlaşmağa imkan verəcəkdir.

Müraciət bu sözlərlə bitir: "Depressiya ilə yalnız tibb mütəxəssisləri məşğul olmamalıdırlar. Bizim hər birimiz depressiyaya düşmüş insanlara kömək etməliyik. Təklif edirəm ki, depressiya barədə daha açıq danışaq. Bu addım qlobal böhranın səbəb olduğu əlillik və iztiraba son qoymaq, həmçinin müalicəyə çətinlik törədən əngəlləri aradan qaldırmaq üçün ən vacib addımlardan biri hesab edilir".

**Ç.CƏFƏROV,**
*Ümumi cərrahiyyə kafedrasının müdiri, professor*

# QİYMƏTLİ DAŞLAR MÜALİCƏ EDİR

## Akvamarin

**Akvamarin beril mineralının bir növüdür və dəniz suyu rəngində olur (latınca aqva-"su", marinus-"dəniz" deməkdir). Kimyəvi tərkibi $Be_3\ Al_2\ Si_6O_{18}$-dir. Sinqoniyası heksaqonaldır. Akvamarinin rəngi onun tərkibində olan dəmir ionlarının miqdarından asılı olaraq yaşılımtıl rəngdən tünd göy rəngə qədər dəyişir. O, axşam və süni işıqlanma zamanı daha parlaq rəngdə ola bilər.**

Bəzən akvamarində "xrizantemlər " və ya "qar nişanə"ləri adlanan ağ ələvələr təsadüf edilir.Bunlardan başqa sarımtıl mərkəzə və mavi göyümtül kənarlara malik daşlar da olur. Günəş işığının təsirindən akvamarinin rəngi vaxt keçdikcə solğunlaşa bilər.Berillərdə dayanıqlı mavi rəng onları müsbət 400-500 $^0C$ -ə qədər qızdırdıqda əmələ gələ bilər və bu da akvamarinin təbii mənşəli olmasının diaqnostiqasının çətinliyini göstərir.

"Akvamarin" termini ilk dəfə işlənilməyə XVII əsrin əvvəllərində Boetsiy de Boot tərəfindən daxil edilmişdir.

Ən böyük akvamarinlərdən biri Braziliyada tapılmışdır. Onun kütləsi 110 kq-a, uzunluğu isə 48,5sm-ə bərabər olmuşdur.

Akvamarin orqanizmin müdafiə qüvvəsini möhkəmləndirir,dəri və ağ ciyər xəstəliklərində, diş ağrıları zamanı xeyirlidir, allergik reaksiyaları yüngülləşdirir, mədə və qara ciyərə yaxşı təsir göstərir. O, həmçinin dəniz xəstəliyinin, stres və qorxunun öhdəsindən gəlməyə köməklik göstərir.

Akvamarin ənənəvi olaraq dənizçilərin və dəniz komandanlarının tilsimi olmuşdur. O, dostluq, ədalət və cəsarət daşı hesab olunur. Akvamarin, adətən öz sahibinin əhval-ruhiyyəsindən və hava şəraitindən asılı olaraq rəngini dəyişir. Ancaq aydın havada, yaxud onun sahibinin qəlbində sakitlik və rahatlıq hökm sürdükdə akvamarin təmiz mavi rəngdə olur. O, sahibini təhlükədən



və hiylədən mühafizə edir, mənəviyyatını möhkəmləndirir və ona düşüncəlik verir.

Akvamarin insanlarda onurğa boyuca yerləşən boğaz bərabərində olan aktiv mərkəzə, bu mərkəz də öz növbəsində tənəffüs, eşitmə orqanlarına, həmçinin dəri örtüyünə təsir göstərir, emosiyaları idarə edir.

Akvamarinlə bəzədilmiş zinət əşyalarını tərəzi, balıq və xərçəng bürcündə doğulanlar taxa bilər.

**Sahib ƏHMƏDOV,**
*Ümumi gigiyena və ekologiya kafedrasının dosenti*

# QIŞDA ÜRƏK-DAMAR XƏSTƏLİYİNDƏN ÖLÜM HALLARI ÇOXALIR

**◆ ABŞ-dan olan alimlər bildiriblər ki, iqlim zonasından asılı olmayaraq ürək-damar xəstəliyindən ölənlərin sayı qış dövründə çox olur.**

Tədqiqat müəlliflərindən biri tibb elmləri doktoru Brayn Şvartsın qeyd etdiyi kimi, bu kəşf alimlərin özləri üçün də gözlənilməzlik olub. Daha öncə ölüm səviyyəsinin mövsümi dəyişməsinin müəyyənedici faktoru məhz iqlim hesab edilirdi.

Los-Ancelesdə «Good Samaritan» hospitalının tədqiqatçıları 2005-2008-ci illər ərzində müxtəlif iqlim şəraitinə malik Kaliforniya, Texas, Arizona, Corciya, Vaşinqton, Pensilvaniya və Massaçusets kimi ABŞ-ın yeddi müxtəlif ştatında ölüm faizini analiz ediblər.

Araşdırmaların göstərdiyi kimi, bütün regionlarda ölümlərin ümumi sayı yay fəslinin minimal göstəricisi ilə müqayisədə qışda 26-36 faiz çox olub.



Bununla yanaşı, ölüm faizinin göstərici-ləri müxtəlif iqlim şəraitli regionlarda oxşar olub.

Tədqiqatçılar ürək-damar xəstəliyindən nəyə görə qış aylarında daha çox insanın ölməsini müəyyən etməyi qarşılarına məqsəd qoymasalar da, doktor Brayan Şvarts güman edir ki, soyuq hava damarların yığılmasına və qan təzyiqinin artmasına səbəb olur.

Brayan Şvarts daha sonra əlavə edib ki: «İnsanlar qışda yaya nisbətən daha az sağlam həyat tərzi keçirirlər, onlar pis qidalanır və idmanla az məşğul olurlar».

*Babası Çingiz, nənəsi Kübra xanım sevimli nəvələri Əbi Müstəcəb oğlunu ad günü münasibətilə səmimi qəlbdən təbrik edir, ona cansağlığı, doğmalarının əhatəsində xoşbəxt günlər arzulayırlar!*




*Dilarənin iki yaşını qardaşı Əli, bacısı Leyla, anası Fərqanə, atası Vüqar, nənələri Yaqut və Ofeliya, babaları Kərim və Sərdar, əmisi Anar, dayısı Səid, xalaları Rəşidə və Xəyalə səmimi qəlbdən təbrik edirlər,doğmalarının əhatəsində xoşbəxt böyüməsini Ulu Tanrıdan diləyirlər!*



## Etibarsız sayılır

II müalicə-profilaktika fakültəsinin VI kurs, 280[b] qrup tələbəsi Hüseynzadə Ruslan Təvəkkül oğlunun adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

Məmmədova Könül Rəşid qızına məxsus Kapital Bank tərəfindən verilmiş sosial-müavinət kartı itdiyi üçün etibarsız sayılır.

Qasımova Məhbubə Əli qızına Azərbaycan Tibb Universiteti tərəfindən 1975-ci ildə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Peykər Valiyyə Eynulla qızına Azərbaycan Tibb Universiteti tərəfindən 1989-cu ildə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Pediatriya fakültəsinin IV kurs, 404[a] qrup tələbəsi Əmirfətli Tərlan Əsəd oğlunun adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

Pediatriya fakültəsinin IV kurs 404[a] qrup tələbəsi Abasov Gündüz Adilxan oğlunun adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

Hərbi tibb fakültəsinin IV kurs, 1118[b] qrup tələbəsi İsalı Sənan Əlyar oğlunun adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

Hərbi tibb fakültəsinin III kurs, 1120[b] qrup tələbəsi Abduləzimov Əli Xanlar oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin III kurs, 369[b] qrup tələbəsi İsmayılova Aygül Rafiq qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin V kurs, 242[a] qrup tələbəsi İbrahimova Telli Azad qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## Allah rəhmət eləsin!

"Təbib" qəzetinin redaksiyası, pediatriya, tibbi profilaktika və tibbi biologiya, stomatologiya fakültələrinin,Tələbə Həmkarlar İttifaqı Komitəsinin kollektivi, rus dili, ümumi gigiyena və ekologiya, fəlsəfə, ictimai sağlamlıq və səhiyyənin təşkili, tibbi biologiya və genetika, latın dili, qidalanma və kommunal gigiyena kafedralarının və Mülki Müdafiə Tibb Xidməti kursunun əməkdaşları mikrobiologiya və immunologiya kafedrasının professoru Mehman Əliyevə qardaşı

**Akif müəllimin**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Təbib" qəzetinin redaksiyası, Azərbaycan dili kafedrasının əməkdaşları dosent Məfkurə Hüseynovaya qudası

**akademik Budaq Budaqovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüzünlə başsağlığı verirlər.

Rus dili kafedrasının əməkdaşları kafedranın baş laborantı İradə Əliyevaya əzizi

**Akif Əliyevin**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Biofiziki və bioüzvi kimya kafedrasının əməkdaşları kafedranın tədris hissə müdiri Həqiqət xanıma əzizi

**Faiq Mahmudbəyovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüzünlə başsağlığı verirlər.

Əsaslı kitabxananın kollektivi daxili xidmət şöbəsinin əməkdaşı İmarət Mustafayevaya anası

**Hüquqət Mehtiyevanın**

vəfatından kədərləndiyını bildirir və dərin hüzünlə başsağlığı verir.

Rus dili kafedrasının əməkdaşları kafedranın baş müəllimi Tamilla xanıma əzizi

**Zemfira xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Mülki Müdafiə Tibb Xidməti kursunun əməkdaşları iş yoldaşları Ağahüseyn müəllimə həyat yoldaşı

**Zoya xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bədən tərbiyəsi və idman kafedrasının əməkdaşları terapevtik stomatologiya kafedrasının müdiri, dosent

**Rza Qasımovun**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər.

Bədən tərbiyəsi və idman kafedrasının əməkdaşları kafedranın müəllimi Natiq Qarayevə anası

**Solmaz xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

ATU-nun kadrlar şöbəsinin əməkdaşları Qumru Abdullayevaya anası

**Yaxşı xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
**ELDAR İSMAYIL**

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 100
2-ci mərtəbə,
tel.: 595-24-97

Lisenziya N - 022633
İndeks -0269
Sayı 4000
Sifariş: 965